# Qəbələ qlobal diplomatiyaya ev sahibliyi edir

(Əvvəli 1-ci səhifədə).

Çex Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.






Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Çexiyanın Baş naziri Andrey Babişin qarşısından keçdi.

Azərbaycan nümayəndə heyətinin üzvləri Baş nazir Andrey Babişə, Çexiya nümayəndə heyətinin üzvləri isə Prezident İlham Əliyevə təqdim olundu.

Aprelin 27-də Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çex Respublikasının Baş naziri Andrey Babişlə təkbətək görüşü keçirilib.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qəbələdə Çex Respublikasının Baş naziri Andrey Babişlə geniş tərkibdə görüşü olub və mətbuata bəyanatlarla çıxış ediblər.

Aprelin 27-də Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Çex Respublikasının Baş naziri Andrey Babişin iştirakı ilə Azərbaycan-Çexiya biznes-forumu keçirilib.

Aprelin 27-də Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Çex Respublikasının Baş naziri Andrey Babişin şərəfinə rəsmi lanç verilib.

Çexiyanın Baş nazirinin Azərbaycana səfəri başa çatıb.

Çex Respublikasının Baş naziri Andrey Babişin Azərbaycan Respublikasına rəsmi səfəri aprelin 28-də başa çatıb. Qəbələ Beynəlxalq Hava Limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Çexiyanın Baş naziri Andrey Babişi Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və digər rəsmi şəxslər yola saldılar.

**Qəbələ RİH**

# Ukrayna Prezidenti Volodimir Zelenskinin Azərbaycana işgüzar səfəri

Aprelin 25-də Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ukrayna Prezidenti Volodimir Zelenski ilə təkbətək və geniş tərkibdə görüşü olub.





Söhbət zamanı dövlətimizin başçısının Volodimir Zelenski ilə əvvəlki görüşləri məmnunluqla xatırlandı, Ukrayna Prezidentinin ölkəmizə bu səfərinin ikitərəfli əməkdaşlıq məsələlərinin müzakirəsi üçün yaxşı imkan yaradacağına əminlik bildirildi. Əməkdaşlığın bir çox istiqamətdə, o cümlədən enerji sahəsində genişləndirilməsinə dair fikir mübadiləsi aparıldı, kənd təsərrüfatı ilə bağlı əməkdaşlıq məsələləri müzakirə olundu, Hökumətlərarası Komissiyanın fəaliyyətinə toxunuldu.

Ölkəmizin Ukraynaya humanitar dəstəyini, eyni zamanda, Azərbaycan dövləti tərəfindən ukraynalı uşaqlara olan diqqət və qayğını yüksək qiymətləndirən qonaq bütün bunlara görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Tezliklə bir qrup ukraynalı tələbənin reabilitasiya məqsədilə, həmçinin Azərbaycanın mədəniyyəti və incəsənəti ilə tanış olması üçün ölkəmizə səfərinin nəzərdə tutulduğu vurğulandı.

Aprelin 25-də Qəbələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ukrayna Prezidenti Volodimir Zelenski mətbuata bəyanatlarla çıxış ediblər.

**Qəbələ RİH**

# Azərbaycanla Çexiya uzun illərdir enerji sahəsində etibarlı tərəfdaşlardır

Qlobal geosiyasi proseslərin fonunda enerji təhlükəsizliyi artıq yalnız iqtisadi məsələ deyil, dövlətlərin strateji dayanıqlığını müəyyən edən əsas amillərdən birinə çevrilib. Məhz bu reallıq fonunda Çexiyanın Baş naziri Andrey Babişin Azərbaycana səfəri zamanı enerji əməkdaşlığı ilə bağlı verilən mesajlar xüsusi siyasi və iqtisadi əhəmiyyət daşıyır. Qəbələdə səslənən bəyanatlar göstərdi ki, Azərbaycan-Çexiya münasibətlərində enerji amili təkcə əməkdaşlıq sahəsi deyil, strateji tərəfdaşlığın əsas dayaqlarından biridir. Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycanla Çexiya uzun illərdir enerji sahəsində etibarlı tərəfdaşlardır. Azərbaycan neftinin Çexiyanın enerji balansında mühüm yer tutması bu əməkdaşlığın təsadüfi və ya situativ xarakter daşımadığını göstərir. Bu, qarşılıqlı etimad və uzunmüddətli strateji maraqlara əsaslanan münasibətlər modelidir.



Avropada enerji mənbələrinin şaxələndirilməsi siyasəti fonunda Azərbaycan etibarlı tədarükçü kimi xüsusi çəkisini artırmaqdadır. Prezident İlham Əliyevin Azərbaycanın dünya bazarlarına enerji resursları ixrac edən etibarlı ölkələr sırasında olduğunu vurğulaması da məhz bu reallığın ifadəsidir. Bu gün Azərbaycan qazının 16 ölkəyə, o cümlədən Avropa İttifaqının 10 üzv dövlətinə ixrac olunması ölkəmizin enerji diplomatiyasının miqyasını aydın göstərir. Bu fakt Azərbaycanın artıq təkcə enerji istehsalçısı deyil, Avrasiyanın enerji təhlükəsizlik arxitekturasında mühüm rol oynayan strateji aktor olduğunu təsdiqləyir. Cənub Qaz Dəhlizi kimi nəhəng layihələrin reallaşması, yeni ixrac marşrutlarının formalaşdırılması və Avropa bazarında artan mövqe Azərbaycanın enerji siyasətinin uğurudur. Bu kontekstdə Çexiyanın Azərbaycandan təbii qaz almaq niyyətini açıq şəkildə bəyan etməsi olduqca mühüm siyasi siqnaldır. Çexiyanın milli enerji operatorunun uzunmüddətli müqavilələrdə maraqlı olması təsdiqləyir ki, Bakı artıq Avropa paytaxtları üçün alternativ yox, prioritet enerji tərəfdaşı kimi qəbul edilir. Bu isə Prezident İlham Əliyevin illərdir həyata keçirdiyi uzaqgörən enerji strategiyasının nəticəsidir. Burada diqqət çəkən əsas məqamlardan biri enerji əməkdaşlığının ticarət münasibətlərindən strateji təhlükəsizlik modelinə transformasiya olunmasıdır. Çünki qaz tədarükü ilə bağlı uzunmüddətli müqavilələr yalnız iqtisadi anlaşma deyil, siyasi etimad sənədidir. Çexiyanın bu sahədə Azərbaycanla daha sıx işləmək niyyəti ölkəmizə olan etimadın bariz göstəricisidir.

**Azad MƏMMƏDOV,**
**"Qəbələ səsi"**